**UOT 94(479.24)**

**NAZİM MƏMMƏDOV**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun*
*"İkinci Qarabağ müharibəsi tarixi və Böyük Qayıdış hərəkatı"*
*şöbəsinin baş elmi işçisi, t.e.d., dosent*
**mamedov-n@yahoo.com**

# ERMƏNİ SEPARATÇILARININ TABUTUNA VURULAN SON MİSMAR: XANKƏNDİ ZƏFƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/86-97

*Azərbaycanın qədim yaşayış məskəni olan Xankəndi şəhəri 20 sentyabr 2023-cü ildə Ermənistan silahlı birləşmələrinin işğalından azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmiş və həmin gündən bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır. Bu, böyük tarixi hadisədir və bu tarix bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfərlə bundan sonra da əbədi fəxr edəcəklər. Bu gün bu torpaqların əsil sahibi olan Azərbaycan xalqı bu ərazilərdə, o cümlədən Xankəndi şəhərində, Xocalıda, Ağdərədə, Əsgəranda, işğaldan azad edilmiş bütün digər ərazilərdə geniş quruculuq-abadlıq işləri ilə məşğul olur.*

*Açar sözlər:* Azərbaycan, Ümummilli lider Heydər Əliyev, Prezident İlham Əliyev, Xankəndi, erməni separatizm, zəfər salnaməsi.

***Giriş.*** Xankəndi Azərbaycanın qədim yaşayış məskənidir. Xankəndinin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır.

Qeyd edək ki, 1970-1985-ci illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü, düşüncəsi, inadlı fəaliyyəti və dərin qayğısı nəticəsində Azərbaycanın Xankəndi şəhərində sənaye üstün, sürətlə və dinamik inkişaf etmiş, əhalinin sosial-iqtisadi həyatında, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdır [9, s.102]. Həmin illərdə Xankəndi şəhərində mədəniyyətin inkişafında mühüm dövr oldu. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Xankəndi şəhərində təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Şəhərin mənəvi sərvəti, kadr potensialı daha da artdı. Dövlətimizin dərin qayğısı nəticəsində Xankəndi şəhərində mədəniyyət dinamik inkişaf etdi. Artıq XX əsrin 80-ci illərinin ortalarında Xankəndi şəhəri Azərbaycanın inkişaf etmiş mədəniyyətə malik şəhərlərindən birinə çevrilmişdi [8, s.132]. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu ermənilərə və bütün dünyaya sübut etdik ki, bu Azərbaycanın tarixi, qədim və əzəli torpağımızdır. Bu torpaqların sahibləri Azərbaycan xalqıdır. Artıq bu bölgənin sahibləri quruculuq və bərpa prosesini uğurla davam etdirir.

***Antiterror əməliyyatını zəruriləşdirən amillər.*** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarından birində 23 saatlıq antiterror əməliyyatının səbəblərinə aydınlıq gətirərək demişdir: "…. Bəyannamənin imzalanmasına baxmayaraq, Ermənistan onun bəndlərini yerinə yetirmirdi, halbuki ən vacib bəndlərdən birində deyilirdi ki, bütün erməni silahlı qüvvələri Qarabağ ərazisindən çıxarılmalıdır. Bu əməl edilmədi, həm də nümayişkaranə şəkildə edilmədi. Hətta iki il ərzində – 2020-ci ildən 2023-cü ilin əvvəlinədək, Azərbaycanın Laçın rayonunda sərhədə nəzarət etmədiyi bir vaxtda, oraya sayı milyonlarla ölçülən nəhəng döyüş silah-sursatları daşınıb, bu isə tamamilə yaxın vaxtlarda aşkara çıxarılıb. Minalar gətirilib, ərazi əlavə olaraq minalanıb. Bütün bunların hamısı ona gətirib çıxarıb ki, azərbaycanlılar öz torpaqlarında həlak olmağa davam ediblər. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bizim 315 nəfər hərbi və mülki vətəndaşlarımız həlak olmuş və ağır şə-

kildə yaralanmışlar. Təəssüf ki, onların sayı hər həftə artır. Azərbaycana qarşı ərazi iddialarına son qoymaqla bağlı Ermənistana edilən çoxsaylı çağırışlar qəribə reaksiyaya səbəb olub ki, həm də bununla bağlı sizi məlumatlandırmaq istərdim. Bir il əvvəl – ötən ilin oktyabr ayında Ermənistan və Azərbaycan rəhbərlərinin beynəlxalq tərəfdaşlarla görüşündə Bəyanat qəbul edildi. Bu sənədə əsasən hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını və ölkələrimizin ərazi bütövlüyünü təsdiqləyən 1991-ci il Alma-Ata bəyannaməsinin tərəfdarı olduqlarını bəyan etdilər. Biz bunu Ermənistan tərəfindən atılan mühüm addım hesab etdik, Azərbaycana qarşı ərazi iddialarından nəhayət əl çəkəcəyini zənn etdik. Lakin təəssüf ki, ümidlərimiz doğrulmadı. Azərbaycanın ərazi bütövlüyünü sözdə və kağız üzərində tanıyan Ermənistan rəhbərliyi əməldə hər şeyin əksini edirdi. Təxribat hərəkətlərinə son qoymaqla bağlı Azərbaycanın etdiyi çoxsaylı çağırışlar təəssüf ki, bütün ciddiliyi ilə qəbul edilmədi. Vəziyyət daha da gərginləşdi, çünki bu il sentyabrın 2-də Ermənistanın baş naziri qondarma "Dağlıq Qarabağ Respublikasının" yaradılmasının ildönümü ilə bağlı təbrik məktubu göndərdi. Bu, qırmızı xətti keçmək demək idi və təbii ki, Azərbaycan buna dözə bilməzdi. Bu, bizim ərazimizə qarşı açıq-aşkar iddia irəli sürülməsi idi. Sentyabrın 9-da qondarma "Dağlıq Qarabağ"ın qondarma hakimiyyət orqanları "seçki" keçirdilər, özlərinə yeni başçı seçdilər, bu isə mövcud reallıqların tam şəkildə inkar edilməsi demək idi və sentyabrın 19-da Azərbaycana antiterror tədbirləri keçirmək və öz suverenliyini tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qoymadı" [14, s.2].

Aydındır ki, çətinlik dərəcəsindən asılı olmadan bütün səyləri məhz problemin həllinə yönəltmək, mövqeyində israrlı olmaq, iradə sərgiləmək, görülən işin uğurla nəticələnəcəyinə böyük daxili inam və bu yöndə ardıcıl siyasət ancaq müzəffər sərkərdələrə, qurucu, yaradıcı dövlət adamlarına nəsib olur. Vaxtilə "Qarabağ Azərbaycandır!" deyiləndə ona daxili inam, ideyanın aydın olması, məqsədyönlü səylərin ardıcıllığı və dözümlüyü, açıq etiraf edək ki, ancaq Prezidentimiz İlham Əliyevə məxsus idi. Qarşıya qoyulan ideyanın bir müddət gerçəkləşməməsi heç də o demək deyildi ki, bu ideyadan imtina edilib və ya unudulub. İdeya yaddaşda, hafizədə passiv şəkildə, lakin daim hər an aktivləşə bilən zonada yaşadılır və əlverişli mühit, münbit şərait, məkan, yaranan zaman yetişən kimi aktiv fazaya qayıdır, reallaşdırılır. Bu isə şəxsiyyətin keçmişi ilə bu günü arasında kəsilməz bir əlaqə yaratmaqla onun bütövlüyünü təmin edir. Buna görə də Prezident, Müzəffər Ali Baş Komandan haqlı olaraq deyir: "Nəyi, necə, nə vaxt etmək lazımdır. Onu mən bilirəm" [7, s.69].

Diplomatik səylər heç bir fayda verm̈ədiyindən, əksinə, düşmənin iddiasını artırdığından, istəklərinin reallaşdırılması üçün hücum əməliyyatları sərt əks-hücumla qarşılandı. 44 gün davam edən həmin əks-hücum İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi kimi tarixə yazıldı. Kapitulyasiya aktının imzalanmasından sonra bir müddət qarşı tərəfdən qırmızı xəttimizi keçən ifadələr və ciddi hərəkətlər olmasa da, son dövrlər belə hallar artmağa başlamışdı. Belə məqamda erməni politoloqu İqor Muradyanın İkinci Qarabağ müharibəsində Ermənistanın düşdüyü vəziyyəti şərh edərkən dediyi sözlər yerinə düşür: "Müharibədə pis şeylər var – kapitulyasiya. Bu, əsl kapitulyasiyadır".

Müharibədə qalib tərəf Azərbaycan olsa da, məlum 5 prinsip əsasında Azərbaycanla Ermənistan tərəfinin mövqeyində müxtəlif dəyişikliklər baş verdi. 2022-ci ilin oktyabr ayında Praqa və Soçi görüşlərində 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul etsə də, Ermənistanın rəhbərliyi və onların himayə etdiyi Qarabağdakı separatçılar ziddiyyətli bəyanatlarla çıxış edirdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün yenə də şansın varlığını, bunun üçün də onların Azərbaycana qarşı bütün ərazi iddialarına və xoşagəlməz bəyanatlarına son qoymalı olduğunu bildirirdi: "Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, – biri özünü prezident adlandırır, biri özünü nazir adlandırır, biri nə bilim nə parlament sədri adlandırır, – bu təlxəklər toplusu, nəhayət bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz. Biz onlara müxtəlif yollarla dəfələrlə izah etməyə çalışmışıq ki, onlar ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş ermənilər də rahat buraxacaqlar".

Eyni zamanda Prezidenti İlham Əliyevin 2023-cü il aprelin 18-də uzaqgörənliklə dediyi bu fikirlər artıq reallığa çevrilmişdir: "... Ancaq onlar yaxşı fikirləşsinlər. Bir gün gözlərini açıb Azərbaycan bayrağını öz başları üzərində görə bilərlər" [7, s.70].

Çox uzaqgörənliklə deyilən bu sözlərdən dörd ay sonra vardanyanların, balayanların və başqalarının Bakıya gətirilmə vəziyyəti onların əsl təlxək toplusu olduğunu təsdiq etdi. Bu proses təlxək-

lərin, onların başçılarının son nəfərinin gətirilməsinə qədər davam edəcəkdir.

Bütün bunlarla yanaşı 2023-cü il sentyabrın 2-də Ermənistanın baş nazirinin qondarma rejimə "müstəqilliklə bağlı təbrik məktubu, sentyabrın 9-da saxta "prezident" seçkiləri və bundan yenidən eyforiyaya qapılıb "status uğrunda mübarizə"nin elan edilməsi, necə deyərlər – "cəhənnəmə vasil olmuş statusun yenidən xortdaması" və bir neçə gün sonra mina terrorunun törədilməsi ilə 6 nəfər vətəndaşımızın həlak olması ölkəmizin səbri ilə oynamaq, heysiyyətimizə toxunmaq və qırmızı xətti növbəti dəfə pozmaq idi. Bunlara bənzət, hətta Ağır Atletika üzrə Avropa çempionatında Dövlət Bayrağımızı nümayişkaranə səkildə yandırmaq və digər hadisələri törədənlərə dəfələrlə xəbərdarlıq edilsə də, bir nəticə vermədi.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətmişdir. Belə ki, erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak olmuş və yaralanmışdır. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulmuşdur. Nəticədə Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanmışdır. Eyni zamanda sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak olmuşdur. Erməni silahlı qüvvələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsdiq edilmişdi [3, s.4].

Sadalanan amillər fonunda, Qarabağ iqtisadi rayonunda yerləşdirilmiş ermənıı silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılmışdır. Görülən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılmışdır. Aparılan antiterror tədbirləri yalnız qanunsuz hərbi birləşmələri və bərpa infrastrukturu hədəf almışdır. Mülki əhali və obyektlərə heç bir halda hücum edilməmiş, bununla bağlı hər hansı iddia əsassız və qəbuledilməz hesab olunur.

Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yaşayış yerlərinin yaxınlığında hərbi infrastrukturun yerləşdirilməsini nəzərə alaraq, Azərbaycan tərəfi antiterror tədbirləri keçirilən ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırmışdır. Mobil SMS xidməti, səsgücləndirici texniki vasitələr və məlumat vərəqələri vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinləri müvafiq olaraq məlumatlandırılmış, Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüququn normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunmuşdur. Bununla yanaşı əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılmışdır. Azərbaycan tərəfi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsinin regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olduğunu dəfələrlə bəyan etmiş və bildirmişdir ki, bölgədə sülhə və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır. Eyni zamanda Azərbaycanın suveren ərazilərində beynəlxalq hüquqa zidd olaraq istənilən hərbi mövcudluq regional sülh və təhlükəsizliyə ciddi təhdiddir və Azərbaycanın hərəkətləri müstəsna olaraq bu qanunsuz qüvvələrin sıradan çıxarılmasına və qondarma rejimin buraxılmasına yönəldilməsi bəyan edilmişdir.

***Qarabağda antiterror əməliyyatları.*** 2023-cü il sentyabrın 19-dan başlayaraq, Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri sentyabrın 20-də də uğurla davam etdirilmişdir. Həmin vaxt Müdafiə Nazirliyindən bildirilmişdir ki,

Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus döyüş mövqeləri, hərbi təyinatlı avtomobillər, artilleriya və zenit-raket qurğuları, radioelektron mübarizə stansiyaları və digər hərbi təyinatlı vasitələr zərərsizləşdirilmişdir. Belə ki, Ermənistan silahlı birləşmələrinin strateji əhəmiyyətli yüksəkliklərdə yerləşən hərbi obyektləri və döyüş texnikası dəqiq atəş zərbələri ilə məhv edilmişdir.

Dünya ictimaiyyətində yanlış rəy yaratmaq məqsədilə Ermənistanın bəzi sosial media hesablarında, guya, Silahlı Qüvvələrimiz tərəfindən yenidən Xankəndi şəhərinə atəş açılması barədə yayılan məlumatlar həqiqəti əks etdirmir və dezinformasiya məqsədi daşıyır. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin verdiyi məlumatda bildirilir ki, "Yayılan bu məlumatı qəti surətdə təkzib edirik. Bir daha bildiririk ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bölmələri yalnız legitim hərbi obyektləri və hərbi infrastrukturu yüksək dəqiqliyə malik silahlarla hədəfə alır və sıradan çıxarır".

2023-cü il sentyabrın 20-si saat 10:00 radələrində Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərmişdir [3, s.4]. Bölmələrimizin sayıqlığı nəticəsində kvadrokopter aşkar edilərək xüsusi texniki vasitələrlə endirilmiş və zərərsizləşdirilmişdir.

Ermənistanın bəzi sosial media hesabatında Laçın yolu ilə Rusiya sülhməramlı kontingentinin müşayiəti altında hərəkət edən mülki kolonun guya Azərbaycana Silahlı Qüvvələri tərəfindən atəşə tutulması barədə yayılan məlumatın heç bir əsası yoxdur və dezinformasiya xarakteri daşıyır. Azərbaycan Respublikası Müdafiə Nazirliyi bu əsassız iddianı qəti surətdə təkzib etmişdir.

Həmin vaxt Azərbaycan hərbi qulluqçuları çağırışları çap edilmiş məlumat vərəqələrini antiterror tədbirlərinin keçirildiyi ərazidə paylamışdı. Həmin müraciət vərəqləri iki müxtəlif tərtibdə təşkil olunmuşdur. Müraciət və çağırışları səsgücləndiricilərlə həm silahlılara, həm də mülki sakinlərə çatdırmışlar.

Artıq silah-sursatı tükənən Ermənistan silahlı qüvvələri birləşmələrinin hərbi qulluqçuları pərakəndə şəkildə təşviş içində döyüş mövqelərini tərk etmək məcburiyyətində qalmışlar.

Artıq, Ermənistan tərəfi məğlub olduğlarını dərk etdilər. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu:

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir [3, s.4].

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Qarabağ iqtisadi rayonunda keçirdikləri lokal xarakterli antiterror tədbirləri çərçivəsində qarşı tərəfə məxsus növbəti hərbi təyinatlı texnika, döyüş mövqeləri və sığınacaqların zərərsizləşdirilməsi həyata keçirilmişdir.

2023-cü il 20 sentyabr saat 13:00-a olan məlumata görə Ermənistan silahlı qüvvələri birləşmələrinin mövqelərində 90-dan artıq döyüş mövqeyi, eləcə də bir neçə strateji əhəmiyyətli mövqelər Azərbaycan Silahlı Qüvvələri tərəfindən nəzarətə götürülmüşdür. Qarşı tərəfə məxsus 7 ədəd hərbi nəqliyyat vasitəsi, 4 ədəd minaatan, 1 ədəd tank, 2 ədəd piyadanın döyüş masını (PDM) və xeyli sayda silah-sursat Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən qənimət olaraq ələ keçirilmişdir [3, s.4]. Həmin vaxtdan silah-sursatı tükənən Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları pərakəndə şəkildə, təşviş içində döyüş mövqelərini tərk etmişlər. Azərbaycan Ordusunun texniki vasitələrinin, eləcə də müşahidə vasitələrinin nəzarəti altında həmin şəxsi heyətin geriyə çəkilməsi və könüllü şəkildə döyüş mövqelərini tərk etməsi üçün də şərait yaradılmışdır. Onlara bu halda heç bir zərbə endirilməmişdir.

***Antiterror əməliyyatlarının əhəmiyyəti.*** Həm müzəffər sərkərdəlik, həm də qurucu, yaradıcı dövlət başçısı meyarlarını özündə tərənnüm edən Prezident İlham Əliyev bəyan etdiklərini reallaşdırdı. Azərbaycan Ordusuna rəhbərlik edən Ali Baş Komandan 2023-cü ildə 23 saatlıq lokal antiterror tədbiri ilə ərazi bütövlüyümüzü və suverenliyimizi tam etdi. Bununla da ermənilərin öz himayədar-

ları və beynəlxalq güclərin dəstəyi ilə Azərbaycanı parçalamağa hesablanmış iki yüz illik layihələrinə son qoyuldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir sutkalıq davam edən antiterror əməliyyatlarının nəticələrinə aydınlıq gətirərək demişdir: "... Bir sutkadan da az tədbirlər nəticəsində Ermənistanın Qarabağdakı ordusu tamamilə tərk-silah edildi, 10-15 min nəfərlik çoxminli kontingent silahsızlaşdırıldı və ərazimizin üzərində tam nəzarət bərpa olundu. Buna paralel olaraq, biz artıq Qarabağın erməni əhalisinin reinteqrasiya planını açıq şəkildə dərc etdik, bu plan internetdə də mövcuddur. Erməni əhalisinə öz evlərində qalmaqla bağlı çağırış edildi, çünki bizim tədbirlərin hədəfləri dəqiq xarakter daşıyırdı. Mülki infrastruktur, mülki obyektlər və mülki şəxslər zərər çəkmədilər. Artıq dediyim kimi, bütün tədbirlər 24 saatdan da az davam etdi. Bu müddət Ermənistanın qanunsuz hərbi birləşmələrinin tam şəkildə demoralizasiyası və mahiyyət etibarilə təslim olması üçün kifayət etdi. Bu gün ərazilərin quldur dəstələrindən təmizlənməsi prosesi gedir. Bizdə olan məlumatlara görə, hələ ərazimizdə gizlənməyə davam edən müəyyən qruplar mövcuddur. Sentyabrın 20-dən sonra Qarabağda hərbi təxribatlar törədildi. Ərazi kifayət qədər böyükdür, dağlığdır, meşəlikdir, buna görə də bizə ərazini quldur dəstələrindən təmizləmək üçün vaxt lazım olacaqdır" [7, s.79].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü ildə yerli televiziya kanallarına verdiyi ilk müsahibəsində cəmi bir cümlə ilə mükəmməl şəkildə ifadə etdiyi kimi, "Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır..." fikri ilə Xankəndi zəfəri müasir Azərbaycan işğala məruz qalan olkədən Zəfər ölkəsinə çevrildiyini ifadə etmişdir. Ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin edilmiş, bayrağımız Xandəndində, Xocalıda, Xocavənddə, Əsgəranda – bütün Azərbaycanm ərazilərində dalğalandırılmış, Qarabağda separatizmin kökü birdəfəlik kəsilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi liderlik qabiliyyəti, siyasi əzmi, qətiyyəti, iradəsi nəticəsində Azərbaycanın qarşısında yeni və parlaq üfüqlər açılmışdır. 2023-cü il sentiyabrin 20-də qazanılan qələbə Azərbaycan xalqının, dövlətinin milli hədəflərinə doğru onilliklərin o üzündən çıxdığı, böyük əzm, qətiyyət, qəhramanlıq tələb edən və ağır sınaqlarla dolu haqq yolunun Zəfər zirvəsi oldu. Heç şübhəsizdir ki, bu zəfərin Azərbaycanın daha parlaq eralara daşinmasında misilsiz rolu olacaqdır. Ərazi bütövlüyümüzün, dövlət suverenliyimiz təmin olunması, Xankəndində bayrağımızın dalğalanılması ilə tariximizin 30 illik bir dövrünə şanlı yekun vurulmuş, özündən sonra gələcək minilliklərə doğru parlaq yollar açılmışdır. Necə ki, bunu Müzəffər Ali Baş Komandan İlham Əliyev müsahibəsində bir daha dünyaya bəyan etdi: "Sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni Azərbaycanın coxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar zəfər olmamışdır. Bütün amilləri – siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq qələbəsdir" [12, s.4].

Onu da qeyd etmək yerinə düşərdi ki, 2020-ci il sentyabrın 27-də başlayan haqq işimizin öncə 8 noyabr Şuşa Zəfəri və onun uğurlu davamı kimi 2023-cü ildə Xankəndi Zəfəri ilə məntiqi sonluğuna yetirilməsi Azərbaycanın bütün parametrlərdə sürətli inkişafına birbaşa təkan verib, qarşıda yeni vəzifələrə, yeni hədəflərə yol açmışdır. Hər zaman beynəlxalq arenada etibarlı və güvənilən tərəfdaş kimi tanınan, qlobal miqyaslı problemlərin həllinə mümim töhfələr verən Azərbaycanın adı dünyanın nüfuzlu, eləcə də güclü ölkələri sırasında çəkilir. Təsadüfi deyil ki, bu gün istənilən beynəlxalq məsələ ilə bağlı Cənubi Qafqazın şəksiz lideri Azərbaycanın fikri öyrənilir, mövqeyi mütləq eşidilir.

Düşmən tapdağından azad edilmiş Xankəndi şəhəri artıq illər boyu onun həsrəti ilə yaşamış xalqımıza qucaq açır. Daha buralarda xuntaçıların murdar rəmzləri, əski parçaları yoxdur. Bu diyarda artıq müqəddəs üçrəngli bayrağımız dalğalanır. Tarixi yurd yerimiz olan Xankəndinə qayıdışımız hər bir soydaşımızın xoşbəxtlik, qürur və ləyaqət mənbəyidir.

Keçən 30 il ərzində Prezident İlham Əliyevin də vurğuladığı kimi, "Əyilmədik, sınmadıq o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı". Qüdrətli Azərbaycan dövləti öz gücü hesabına düşmənlə hərbi-diplomatik sferada mübarizə apardı, haqq yolunda Azərbaycan Zəfər qazandı. 15 oktyabr Xankəndi, Xocavənd, Ağdərə və Xocalıda üçrəngli bayrağımızın dalğalandığı gün kimi təqvimə yazıldı. Uzun illər Xankəndində separatizm, terrorçuluq, türk düşmənçiliyi təbliğatının yuvasına çevrilmiş binanın üzərinə Azərbaycan Respublikasının gerbi vuruldu, önündə müqəddəs Azərbaycan Bayrağı qaldırılaraq revanşizm çağırışları edənlərə son xə-

bərdarlıq edildi. Ölkə başçımızın Xankəndindəki tarixi çıxışı Zəfər salnaməmizə qızıl hərflərlə həkk olundu. Ölkəmizə rəhbərliyinin 20-ci ildönümündə Xankəndində Azərbaycanın Dövlət Bayrağını ucaldan Ali Baş Komandan Dünya Azərbaycanlılarının Vətən həsrətinə birdəfəlik son qoydu. Sözü imzası qədər dəyərli olan, prinsipiallığı və uzaqgörənliyi ilə ən yeni Azərbaycan tarixinin müəllifi, gələcək nəsillərə güclü dövlət bəxş edən Lider – İlham Əliyev tarixi ərazilərimizdən erməni separatizminin kökünü kəsdi.

Qarabağ fatehinin "Heydər Əliyev İli"nə verdiyi ən böyük töhfə heç şübhəsiz, qüdrətli Azərbaycan dövlətinin suverenliyinin tam bərpasıdır. Xankəndi Zəfəri təkcə ölkəmiz üçün deyil, regional və beynəlxalq müstəvidə də böyük əhəmiyyət daşıyır. Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən üç il sonra Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xankəndində separatçı rejimin ləğv edilməsi, tarixi missiyanın uğurla icrasını sübut edir. Bununla da Azərbaycan torpağında erməni separatizminin nəfəsliyi olan "Laçın dəhlizi" ləğv edildi, bütün Qarabağa və Şərqi Zəngəzura tam nəzarət Azərbaycanın əlində cəmləşdi. Qarabağın erməni əhalisi xunta rejiminin əsarətindən xilas edildi. 19-20 sentyabrda keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində Ermənistan ordusunun tör-töküntüləri növbəti məğlubiyyətlə üzləşdi, separatçı-terrorçu dəstələr tərk-silah edildi. 44 günlük müharibədə BMT-nin 4 qətnaməsini təkbaşına icra edən dövlətimiz daha bir tarixi Zəfərə imza ataraq 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın icra olunmamış maddəsinin icrasını reallaşdırdı.

2023-cü il 28 sentyabrda Qarabağdakı separatçı rejim "rəsmi olaraq" özünü buraxdı və bununla da 2020-ci ilin 27 sentyabrında başlayan Zəfər yolu uğurla tamamlandı [5, s.2].

2023-cü il oktyabrın 15-də ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən əzəli torpaqlarımız olan Xankəndi, Xocalı, Ağdərə şəhərlərində, eləcə də Əsgəran qəsəbəsində üçrəngli dövlət bayrağımızın ucaldılması ölkəmizin bütün ərazilərində suverenliyimizin bərpasının təntənəsi olmaqla yüksək qürur və iftixar hissləri ilə qarşılanır.

Xankəndində bu gün əsl bayram ab-havası duyulur. Yaxın müddətdə öz doğma sakinlərinə qucaq açacaq yurd yerimizdə artıq ölkəmizin idman yarışları da keçirilir. Belə ki, dekabrın 21-də bütöv, suveren Azərbaycanın azad Xankəndi şəhəri – Xankəndi stadionu tarixi bir ana, futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində "Qarabağ" – "Mərkəzi Ordu idman Klubu" (MOİK) komandalarının oyununa ev sahibliyi etdi. Təkcə stadiona toplaşmış azarkeşlər deyil, bütün Azərbaycan xalqı, bütün Dünya Azərbaycanlıları eyni sevinci, eyni qüruru yaşadılar. Bütöv Azərbaycan sevinc göz yaşlarına boğuldu. Qeyd edək ki, ilk dəfə işğaldan azad edilmiş torpaqlarımızda belə bir idman bayramı yaşanırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixi oyundan əvvəl bir daha bütün dünyaya mesaj verdi, düşmənlərə, Qarabağ üzərindən gizli oyunlar qurmaq istəyənlərə, ürəklərində məkrli, xəbis niyyət yaşadanlara növbəti dəfə xəbərdarlıq etdi. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İstər İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə, istərsə də 23 saatlıq antiterror əməliyyatları bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi vardır.

Azərbaycan xalqının, xüsusən də gəncliyinin qarşısında duran əsas missiya bu qürüru, şərəf və ləyaqəti əbədi olaraq qorumaq və yaşatmaqdır. Gələcək nəsillər bu şanlı tarixi fəxrlə öyrənəcək, qürur hissi keçirəcəklər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 fevral 2024-cü il andiçmə mərasimində antiterror əməliyyatının əhəmiyyətinə aydınlıq gətirərək demişdi: "Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi.

Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndində iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab

etdim ki, Xankəndində səs verməyim daha düzgün olar. Məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlamışdır. Məhz Xankəndidə səs verdiyim binada xalqımıza qarşı soyqırımı planlaşdırılırdı və oradan idarə olunurdu. Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan Bayrağı ərazimizin hər bir yerində dalğalanacaq" [1, s.2].

Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edərkən bütün beynəlxalq humanitar normalara əməl etmiş, bölgədə yaşayan heç bir dinc sakinə zərər vurmamışdır. Lakin qərbdəki erməni havadarları Azərbaycana qarşı böhtan və yalanla dolu kompaniyaya başlamış və dövlətimizi "işğalçı" kimi təqdim etmişdir. Bu və ya digər məsələlərə aydınlıq gətirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-yə üzv Dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının 53-cü iclas iştirakçılarını qəbul edərkən çıxışında demişdir: "... Azərbaycan həm işğal müddətində, həm İkinci Qarabağ müharibəsində, həm də antiterror tədbirləri zamanı bütün humanitar normalara riayət edib. Beynəlxalq ekspertlər bunun şahididirlər. Yeri gəlmişkən, bu yaxınlarda azad edilmiş ərazilərdə səfərdə olan BMT missiyası dünən və bundan təxminən bir həftə əvvəl artıq iki dəfə məhz bunu vurğulayıb ki, bütün humanitar normalara əməl olunub. Bununla belə, Qərbdəki erməni havadarları Azərbaycana qarşı iyrənc təxribata və yalançı kampaniyaya əl ataraq hər şeydə bizi ittiham edirlər. Burada əsas skripkanı çalan Fransadır və bu, həm sözügedən ölkənin rəsmi şəxslərinin bəyanatlarında, həm Azərbaycanın diskreditasiya edilməsi cəhdlərində, həm də Azərbaycana qarşı aparılan və hər şeyin alt-üst şəkildə təqdim edildiyi media kampaniyasında özünü büruzə verir. Azərbaycan işğalçı kimi təqdim edilir, Ermənistan isə qurban kimi qələmə verilir. Otuzillik işğalın tarixi, bütün şəhər və kəndlərimizin yerlə-yeksan edilməsi, Xocalı soyqırımı – bütün bunların hamısı, təbii ki, inkar edilir, tamamilə yalanla dolu hekayələr uydurulur... Biz, əlbəttə, öz gücümüzlə buna müqavimət göstəririk, baş verənlərlə bağlı həqiqətləri çatdırmağa çalışırıq və çatdırırıq. Ancaq başa düşmək lazımdır ki, güclər qeyri-bərabərdir. Çoxillik müstəmləkəçilik tarixinə malik Fransa kimi ölkələrin dünya üzrə media resursları bizdəkindən qat-qat çoxdur. Lakin bununla belə, biz müxtəlif platformalardan və beynəlxalq təşkilatlardan, habelə digər formalardan istifadə edərək, baş verənlər barədə həqiqətləri çatdırırıq və bundan sonra da actdıracağıq... Öz şərhlərimə yekun vuraraq onu da demək istərdim ki, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasına gəldikdə, biz buna hazırıq. Biz sülh sazişi üzərində işi davam etdirməyə hazırıq. Erməni tərəfinin Rusiya Federasiyasının vasitəçiliyindən imtina edəcəyi təqdirdə, düşünürəm ki, Azərbaycan ilə Ermənistanın xarici işlər nazirləri arasında birbaşa danışıqlar alternativ ola bilər. Hər hansı digər platformalar öz xidmətlərini təklif edən həmin ölkələrin Azərbaycana deyil, həqiqətə, haqlı mövqeyə və beynəlxalq hüquqa münasibəti nəzərə alınmaqla tərəfimizdən təhlil ediləcəkdir" [14, s.32].

İstər 44 günlük müharibədə, istərsə də antiterror əməliyyatları həyata keçirilərkən qardaş Türkiyə dövləti həmişə mənəvi dəstək olaraq Azərbaycanın yanında olmuş və bu gün də olmaqda davam edir. Türkiyə dövləti qəti olaraq bildirib ki, Ermənistanla əlaqələr o vaxt yarana bilər ki, Azərbaycan

dövləti ilə Ermənistan arasında sülh imzalansın və sərhədlər tam müəyyən edilsin. Təsadüfi deyildir ki, Zəfər günlərində və Qarabağda əlamətdar açılışlarda Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğan yaxından iştirak etməklə ürək sözlərini ifadə etmişdir. Zəfərin üçüncü ildönümü münasibətilə Azərbaycan xalqına müraciətində R.T.Ərdoğan ürək sözlərini ifadə edərək demişdir: "Cənab Prezident, Əziz Qardaşım! Onilliklər boyu işğal altında qalmış əzəli Azərbaycan torpaqlarının ana Vətənə geri qaytarıldığı Zəfər Gününün üçüncü ildönümü münasibətilə başda Zati-aliniz olmaqla bütün can azərbaycanlı qardaş və bacılarımı Türk milləti adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Cümhuriyyətimizin yaranmasının və xatirəsini ehtiramla yad etdiyimiz Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün qeyd olunduğu 2023-cü ildə bu mübarək Zəfər Gününü qeyd etməkdən böyük qürur duyuram. Cari ilin sentyabr ayında Qarabağda dəqiqliklə həyata keçirdiyiniz antiterror əməliyyatı Ali Baş Komandanlığınızla böyük zəhmət və fədakarlıq hesabına əldə edilmiş bu bənzərsiz qələbəni taclandırdı. Zati-alinizin şəxsən ucaltdığı şanlı Azərbaycan Bayrağının indi bütün Vətən səmalarında dalğalanması Türkiyə Respublikası və bütün Türk dünyası üçün böyük sevinc və fərəh mənbəyi olmuşdur. Vətən uğrunda şəhid olan bütün azərbaycanlı qardaşlarıma Uca Allahdan rəhmət diləyir, əziz xatirələrini ehtiramla yad edir, qazilərimizə minnətdarlığımı bildirirəm. İşğaldan azad edilmiş bölgələrdə apardığınız bərpa və yenidənqurma işlərini təqdirlə izlədiyimi və Türkiyə olaraq bütün məsələlərdə olduğu kimi, bu məsələdə də hər zaman yanınızda olmağa davam edəcəyimizi vurğulamaq istəyirəm. "Bir millət, iki dövlət" şüarı ilə təcəssüm olunan, "Sevincdə və kədərdə birlik" anlayışı ilə yoğurulan və Zati-alinizlə imzaladığımız Şuşa Bəyannaməsi ilə taclanan sarsılmaz qardaşlıq və müttəfiqlik bağlarımızdan aldığımız güclə, ölkələrimizin əmin-amanlığı və rifahı ilə Cənubi Qafqazda davamlı sülh və sabitliyin bərqərar olması istiqamətində bütün addımları bu günə qədər olduğu kimi, bundan sonra da birlikdə atacağıq. Əziz Qardaşım, fürsətdən istifadə edərək, Zati-alinizin can sağlığı və xoşbəxtliyi, can Azərbaycan xalqının rifahı ilə bağlı ən xoş arzularımı bir daha çatdırıram. Zəfərimiz mübarək, birliyimiz əbədi olsun!" [13, s.5].

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsinin tarixi əhəmiyyətindən biri də ondan ibarətdir ki, Cənubi Qafqaz xalqları bundan sonra davamlı sülhlə nail olmuşdur. Bu və ya digər məsələlərə aydınlıq gətirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarından birində demişdir: "... Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, manea aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, tələb edirdik həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən dırnaqarası erməni cəfakeşləri bilsinlər – nə qədər uzaq olsalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik. Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, Korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil – Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "Dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!".

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycanın sentyabrın 19-da öz ərazisində lokal xarakterli antiterror tədbirlərinə başlamasının bir sıra ciddi səbəbləri var idi. Heç şübhəsiz ki, ən başlıca səbəb

kimi Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunmamasını göstərmək olar. Xüsusilə sazişin Rusiya Federasiyasının sülhməramlı kontingentinin erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilməsini özündə ehtiva edən dördüncü bəndi kağız üzərində qalmışdı.

Bundan əlavə, Qarabağın iqtisadi rayonunda törədilən təxribatların miqyası son vaxtlar xeyli genişlənmişdi. Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində mövcud olan erməni silahlı qüvvələrinin təxribat-diversiya qrupunun üzvləri ərazilərimizə soxularaq, piyada və tank əleyhinə mina basdırırdılar. Elə sentyabrın 19-da bir ədəd nəqliyyat vasitəsi Xocavənd rayonu ərazisində basdırılmış tank əleyhinə minaya düşərək partlayıb. Bu təxribat nəticəsində 2 nəfər mülki şəxs həlak olub. Eyni gündə, qeyd edilən terrorun baş verdiyi əraziyə yola düşən Daxili İşlər Nazirliyinin 4 əməkdaşı Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda minaya düşərək həyatlarını itirib. Bununla da 44 günlük Vətən müharibəsinin başa çatmasından indiyədək, ümumilikdə, mina qurbanlarının sayı 314 nəfərə çatıb, onlardan 61 nəfər həlak olub [11, s.6]. Deməli Azərbaycanın ərazi bütövlüyünün bərpası Ermənistanın "Yeraltı müharibəsi"nin (mina terrorunun) aradan qaldırılması baxımından əhəmiyyətlidir. Azından yeni minaların basdırılmasının qarşısı alınmışdır.

Həmçinin ərazilərimiz separatçılar tərəfindən vaxtaşırı intensiv atəşə məruz qalırdı. Həm mina terroru, həm də atəşkəs pozuntusu işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhalinin, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçularımızın təhlükəsizliyini ciddi səkildə təhdid edirdi. Suverenliyimizin, ərazi bütövlüyümüzün bərpası bütün bunlara son qoydu.

Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılmasının, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsinin və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsinin yeganə yolu bölgədə lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi idi. Belə də oldu. Cəmi bir sutka davam edən əməliyyat nəticəsində Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyaraq təslim oldular. Müdafiə Nazirliyinin açıqlamasında bildirilib ki, yaraqlılar döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş səkildə həyata keçirilməsi təmin edilir. Bütün bunlar böyük əhəmiyyət kəsb etməklə, həm də dünya azərbaycanlılarının vətən həsrətinə son qoydu.

Beləliklə, sentyabrın 20-si Azərbaycanın tarixinə daha bir parlaq səhifə kimi düşdü. Həmin gün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırdılar. Bundan sonrakı mərhələdə bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır. Azərbaycan dövləti bir daha sübut etdi ki, onunla güc yolu ilə danışmaq olmaz. Ölkəmizin ərazisində "boz zonalar" qala bilməz. Əməliyyatın əsas məqsədi mərkəzi hakimiyyətin nəzarətindən kənar ərazilərdə qayda-qanunun, nizamın yaradılması idi ki, buna da nail olundu və əhəmiyyətlidir.

Azərbaycanın qalib dövlət kimi nüfuzu bir qədər də artdı. Rəsmi Bakı indi özünün erməni sakinlərinin ölkənin tamhüquqlu vətəndaşı kimi reinteqrasiyasına çalışır. Rəsmi şəxslərin indiyədək verdikləri açıqlamaları ümumiləşdirərək demək mümkündür ki, ermənilərin təhlükəsizliyi digər etnik azlıqların təhlükəsizliyi kimi Azərbaycan Konstitusiyası və qanunvericiliyi ilə tam təmin ediləcək. Eyni zamanda, ölkənin digər sakinləri kimi ermənilərin də hüquqları ilə yanaşı öhdəlikləri olacaq. Onu da qeyd edək ki, Azərbaycanın apardığı – əməliyyat beynəlxalq – hüquq normalarına, – o cümlədən, beynəlxalq humanitar hüquqa o dərəcədə uyğun əsaslandırılmışdır ki, heç bir dövlət, hətta Ermənistan da ona açıq şəkildə qarışmağa cürət etmədi. Çünki Azərbaycan özünün beynəlxalq birlik tərəfindən tanınmış ərazisində əməliyyat həyata keçirirdi. Hədəf isə Ermənistan silahlı qüvvələri birləşmələrinin ön xəttə və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri idi.

Bu gün Azərbaycan dövlətinin növbəti önəmli vəzifəsi Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Mübaliğəsiz olaraq deyə bilərik ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərarsız xarici qonağı təəccübləndirir. Ona görə ki, bu dərəcədə dağıntılardan sonra belə bir sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir prosesdir. Onu da nəzərə almalı-

yıq ki, Ermənistan tərəfi işğal etdiyi Azərbaycan əraziləri minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirmişdir. Təəssüflər olsun ki, Ermənistanın yeraltı mina terroru bu gün də davam edir. Minalardan təmizlənmə prosesi bu gün də davam edir, 120 min hektar artıq təmizlənib, amma minalanmış sahə daha geniş əraziləri əhatə edir. Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba yurdlarına qaytarılması prosesi uğurla gedir. Apardığımız hesablamalara görə 2024-cü ilinə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə köçürülüb və 2024-cü il ərzindən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacağı planlaşdırılıb. Eyni zamanda nəzərdə tutulmuşdur ki, azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkün köçürüləcək. Hər cür şəraitlə, işlə təmin ediləcəkdir. Dövlət tərəfindən yüzdən çox şəhərin və kəndin baş planları hazırlanacaq, təsdiqlənmiş və bir neçə şəhər və kəndlərdə artıq inşaat işlərinə start verilmişdir. Bu minvalla dövlətimiz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdırmağı və 140 min köçkünün öz dədə-baba torpaqlarına qaytarmağı planlaşdırmışdır. Bütün bunlarla yanaşı ərazidə bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar, 40 tunel və 90 körpü tikilərək əhalinin istifadəsinə verilmişdir. Qarabağ və Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilib, 2 Beynəlxalq Hava Limanı açılıb, 3-cüsü də Laçında istifadəyə verilməsi nəzərdə tutulmuşdur [7, s.107]. Köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin keçmiş siması yenidən bərpa edilərək əhalinin istifadəsinə veriləcəkdir.

Bu gün Azərbaycan dövlətinin qarşısında duran mühüm vəzifələrdən biri də Ermənistanla Azərbaycan arasında sülh sazişinə nail olmaq və sərhədləri tarixi yerləri ilə bərpa etməkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 fevral 2024-cü ildə andiçmə mərasimində çıxışında Azərbaycan-Ermənistan münasibətlərinə aydınlıq gətirərək demişdir: "Azərbaycan-Ermənistan münasibətləri. Mən çıxışımın sonunda bu məsələyə təsadüfən toxunmuram. Hesab edirəm ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır, Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun! [1, s.2].

***Nəticə.*** Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan qalib dövlət, Azərbaycan xalqı isə qəhrəman xalq kimi yeni statusa sahib oldu. Bu da Azərbaycanın yeni nailiyyətlər əldə etməsi üçün baza yaradır. Azərbaycan işğal altındakı torpaqlarını öz gücü hesabına geri qaytarmaqla qüdrətini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan işğaldan azad edilmiş əraziləri yenidən qurmaqla dünyaya yeni bir nümunə göstərəcək. Azərbaycan indi dünyaya yeni bir mənzərəni təqdim etməyə hazırlaşır. Qarabağ və Şərqi Zəngəzur dünyanın yeni mənzərədə ortaya çıxan reallığı olacaq ki, burada insan üçün ən layiqli şərait yaradılacaq. Bütün bunların hamısı, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən siyasətin Azərbaycan xalqına gətirdiyi böyük uğurlardır. Bu uğurların nəticəsi olaraq Ulu öndərimizin dediyi kimi, "Azərbaycan daim dünyaya günəş kimi doğacaqdır".

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi // "Respublika" qəzeti, 12.10.2023, s.2,3.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsi // "Xalq qəzeti", 10.XII.2023, s.1,2.
3. Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üçün fövqəladə son vəziyyətdə dair brifinq // "Respublika" qəzeti, 21.IX.2023, s.4.
4. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı // https:president.az/az/articles/view/57884
5. Abdalov N. Xankəndi Zəfərimiz. Tarixi ədalət bərpa olundu // "Respublika" qəzeti, 26.XII.2023, s.2.
6. Musayev H. Valdaydan Xankəndinə // "Respublika" qəzeti, 30.X.2023, s.5.
7. Məmmədov N. Azərbaycan tarixinin yeni dövrünün başlanğıcı: Xankəndi zəfəri. Bakı, "ADPU-nin nəşriyyatı", 2024, 175 s.
8. Məmmədov N. Heydər Əliyev və Xankəndi şəhərinin inkişaf strategiyası (1969-1982-ci illər) // BDU "Tarix və onun problemləri". Bakı, 2023, s.130-139.
9. Məmmədov N. Azərbaycanın Xankəndi şəhərinin tarixi (rus dilində). Qazaxıstan "Vestnik" Alma-Atı, 2022, №1(68), s.99-108.
10. İsmayılov B. Xankəndi Zəfəri ilə xalqımızın, dövlətimizin qarşısında parlaq üfüqlər açılıb // "Azərbaycan" qəzeti, 20.01.2024, s.1-2.
11. Səxavət H. Xarici ekspertlərdən haqq işimizə dəstək // "Xalq qəzeti", 21.IX.2023, s.6.
12. Xankəndi Zəfəri ilə xalqımızın, dövlətimizin qarşısında parlaq üfüqlər açılıb // "Azərbaycan" qəzeti, 20.01.2024, s.1, 4.
13. Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın təbrik məktubu // "Xalq qəzeti", 09.X.2023, s.5.
14. Prezident İlham Əliyevin MDB-yə üzv dövlətlərin 53-cü iclas iştirakçılarını qəbul edərkən çıxışı // "Respublika" qəzeti, 12 oktyabr 2023, s.2,3.

**НАЗИМ МАМЕДОВ**
*Старший научный сотрудник отдела «История Второй Карабахской войны и Движение Великое возвращение» Института истории и этнологии имени А.А. Бакиханова НАНА, к.ф.н., доцент*

## ПОСЛЕДНИЙ ГВОЗДЬ В ГРОБ АРМЯНСКИХ СЕПАРАТИСТОВ: ПОБЕДА В ХАНКЕНДИ

Ханкенди, древнее поселение Азербайджана, был освобожден от оккупации армянских вооруженных формирований 20 сентября 2023 года. В результате однодневной антитеррористической операции Азербайджан полностью обеспечил свой государственный суверенитет, и с этого дня флаг Азербайджана развевается по всему Карабахскому региону. Это большое историческое событие, которое навсегда останется в сердцах всего азербайджанского народа. Азербайджанский народ, азербайджанцы всего мира будут вечно гордиться этой победой. Сегодня настоящий хозяин этих земель - азербайджанский народ на этих землях, в том числе в городе Ханкенди, Ходжалы, Агдере, Аскеране и на других освобожденных от оккупации территориях строит и создает, занимается восстановлением и благоустройством.

*Ключевые слова:* Азербайджан, Общенациональный лидер Гейдар Алиев, Президент Илхам Алиев, Ханкенди, армянской сепаратизм, триумфальная хроника.

**NAZIM MAMMADOV**
*Senior Researcher of the Department of "History of the Second Karabakh War and the Great Return Movement" of the Institute of History and Ethnology named after A.A. Bakikhanov of the Academy of Sciences of the Republic of Azerbaijan, Doctor of Historical Sciences, Associate Professor*

## THE LAST NAIL ON THE COFFIN OF THE ARMENIAN SEPARATORS: VICTORY OF KHANKANDI

On September 20, 2023, the city of Khankendi, an ancient settlement of Azerbaijan, was liberated from the occupation of the armed forces of Armenia. As a result of the one-day anti-terror operation, Azerbaijan fully secured its state sovereignty, and the Azerbaijani flag was waved all over the Karabakh region since that day. This is a great historical event and this history will live forever in the hearts of all Azerbaijani people. The people of Azerbaijan and the Azerbaijanis of the world will forever be proud of this victory. Today, the people of Azerbaijan – the owners of these lands are building and creating, extensive construction and improvement works are being carried out including in the city of Khankendi, Khojaly, Agdere, Askaran and other areas liberated from occupation. The competitions held in Khankendi are a message of peace to the world and an indicator of historical victory!

*Keywords:* Azerbaijan, National lieder Heydar Aliyev, President Ilham Aliyev, Khankendi, armenia separatism, Triumphal Chroncle.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 oktyabr 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.*
*Rəyçilər: t.e.d. Şahin Fərzəliyev, t.e.d. İbrahim Zeynalov.*